AZƏRBAYCAN ORDUSU

# Adlarını qəhrəmanlıq tariximizə yazanlar





*28 oktyabr 1995-ci ildə ölkəmizdə baş verən dəhşətli metro faciəsindən 21 il ötməsinə baxmayaraq, o hadisə daim ürəyimizi ağrıdır.*

Faciənin ildönümü ilə əlaqədar C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Çingiz Babayevin və kursantların xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi. Tədbiri giriş sözü ilə polkovnik-leytenant Kamran Nəsibov açıq elan etdi.

Ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Zabit Kamran Nəsibov çıxış edərək baş leytenant Çingiz Babayevin və kursantların faciə zamanı göstərdikləri qəhrəmanlıqlardan danışdı. Qeyd etdi ki, onlar insanlıq yolunda öz həyatlarını qurban verərək adlarını xalqımızın qəhrəmanlıq tarixinə böyük hərflərlə yazdılar.

"Hərbi liseydə qəhrəmanların xatirəsi həmişə əziz tutulur, ehtiramla yad edilir, xatırlanır. Ailə üzvləri ilə daim əlaqə saxlanır. Hərbi liseyin zabit və kursantları onların məzarını ziyarət edir, qəbirüstü abidələrinin üstünə gül dəstələri qoyurlar.

Biz onların hər biri ilə fəxr edirik. Gələcəyin zabitləri olacaq kursantlar igidliyi, qəhrəmanlığı bu oğullardan öyrənirlər", - deyə zabit bildirdi.

Rejissoru Elnur Əliyev olan "O qatar çatmadı mənzil başına" sənədli filmi tədbirdə nümayiş olundu.

Sonra hərbi liseyin kursantları "Qəhrəmanlar ölməzdir" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirdilər, qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər.

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayevə həsr olunmuş "Əfsanəvi qəhrəman" kitabının müəllifləri Südabə Sərvi və Aləmzar Sadiqqızının çıxışları da maraqla qarşılandı.

Qəhrəmanın atası Adil Babayev və kursant Samir Məmmədovun atası Nadir Məmmədov da çıxış etdilər. Onlar övladlarının uşaqlıq və gənclik illərini xatırladılar. Onların xatirələrini əziz tutduqlarına görə hərbi liseyin rəhbərliyinə və şəxsi heyətə dərin minnətdarlıqlarını bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**